**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**МИНАРА АЖДАР ГЫЗЫ МАМЕДОВА**

# ПСИХОКОРРЕКЦИЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА С ИНТЕЛЛЕКТУАЛЬНОЙ НЕДОСТАТОЧНОСТЬЮ

6101.01-Аномальная психология (коррекционная психология)

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по психологии

**Баку – 2013**

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**MİNARƏ ƏJDƏR QIZI MƏMMƏDOVA**

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNTELLEKTUAL İNKİŞAFINDAKI ÇATIŞMAZLIQLARIN PSİXOKORREKSİYASI

**6101.01**– Anormal psixologiya (korreksiyalı psixologiya)

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2013**

Iş Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Psixologiya və yaş fiziologiyası şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | Psixologiya üzrə elmlər doktoru, professor<br>**Ərəstun Təriş oğlu Baxşəliyev** |
| **Rəsmi opponentlər:** | Psixologiya üzrə elmlər doktoru<br>**İsfəndiyar Məmmədhüseyin oglu Novruzlu**<br><br>Psixologiya üzrə fəlsəfə doktoru<br>**Mehriban Cəlal qızı İsmayılova** |
| **Aparıcı müəssisə:** | **Bakı Pedaqoji Kadrların Ixtisasartırma və Yenidənhazırlanma İnstitutunun Psixologiya və ictimai elmlər kafedrası** |

Müdafiə "__22__" __06__" 2013 –ъü il saat "______"-da Bakı Dövlət Universitetinin nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən B/FD.02.014 Dissertasiya шurasının iclasında olacaqdır.

Ünvan: AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23, II korpus, otaq 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "______" "_________" 2013- cц ildə göndərilib.

| | |
|---|---|
| **B/FD. 02.014 Dissertasiya şurasının elmi katibi** | **psixologiya üzrə fəlsəfə doktoru Rəşid Vəkil oğlu Cabbarov** |

Sifariş N 868; tiraj 100
“MBM” nəşriyyatının mətbəəsində
çap olunmuşdur

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Respublikamızın müstəqillik əldə etməsi ilə cəmiyyətin həyatında baş verən dəyişikliklər, ümumbəşəri və milli dəyərlərə əsaslanan dövlət quruculuğu siyasəti, eləcə də inkişaf etmiş qərb ölkələrinə inteqrasiya prosesi digər sahələrdə olduğu kimi təhsil sistemində də humanistləşdirmə və demokratikləşdirmənin həyata keçirilməsi zərurətini ortaya çıxarmışdır.

Təhsil islahatlarında özünə yer alan inklüziv təhsilin prioritet istiqamətlərini günün tələbləri səviyyəsində qurmaq üçün məktəbəqədər yaş dövründə uşaqların psixi inkişafında baş verən dəyişikliklərin nəzərə alınması, intellektual inkişafında çatışmazlığı olan uşaqların inkişafının daha erkən yaş dövrlərində psixokorreksiyasını həyata keçirmək üçün zəruri məsələlərin öyrənilməsi və onların normal cəmiyyətə müvəffəqiyyətli inteqrasiyasının və adaptasiyasının təmin edilməsi vacibdir.

İntellektual inkişafında çatışmazlığı olan uşaqların məktəbəqədər yaş dövründə psixokorreksiya edilməsi xüsusi psixologiyada böyük marağa səbəb olmuş və bu sahədə geniş tədqiqatlar aparılmışdır. Nəzərə almaq lazımdır ki, erkən və məktəbəqədər yaş dövründə aparılan psixokorreksiya işi nəinki artıq mövcud olan bioloji qüsuru korreksiya və kompensasiya edir, həm də yeni psixoloji çatışmazlığın əmələ gəlməsinin qarşısını almış olur.

Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, intellektual inkişafında çatışmazlığı olan uşaqların korreksiya işinin həyata keçirilməsi onların gələcək təlim fəaliyyətinə uğurla adaptasiya olunmasına zəmin yaradır, onların şəxsiyyətinin strukturunda əmələ gələn natamamlığın aradan qaldırılmasına imkan verir. Bununla yanaşı belə tədbirlər intellektual inkişafında çatışmazlığı olan uşaqları vaxtında müəyyən etməyə, onların təlim qabilliyini yüksəltməyə, qüsurlarını zamanında korreksiya etməyə şərait yaradır ki, bu da cəmiyyətə faydalı vətəndaşlar yetişdirilməsi işinin təşkilinin metodoloji əsaslarını yaradır.

Bütün bunları nəzərə alıb "Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafındakı çatışmazlıqların psixokorreksiyası" mövzusunun tədqiqat obyekti kimi seçməyi məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.** Problemin işlənməsinin müasir səviyyəsinə nəzər saldıqda görürük ki, bu sahəyə müxtəlif tədqiqatlar həsr edilmişdir. Bu tədqiqatların aparıcı xəttini oliqofren uşaqların psixoloji

xüsusiyyətlərinin öyrənilməsi təşkil edir.

Keçən əsrdə intellektual çatışmazlığı və əqli geriliyi olan məktəbəqədər yaşlı uşaqların təfəkkür fəaliyyətini tədqiq edən alimlər V.M.Astapov, Y.V.Mikadze, D.İ.Augene, T.Bauer, A.Bine, T.Simon, C.Bruner, A.Venger, Q.L.Vıqotskaya, E.İ.Leonqard, T.A.Vlasova, M.S.Pevzner və b. göstərirlər ki, intellektual fəaliyyətin inkişafdan qalması bir halda dölün ana bətnində inkişafının müxtəlif dövrlərində, digər halda isə də uşağın erkən aylarında sinir sisteminin orqanik zədələnməsi nəticəsində baş verir və uşaqların intellektual fəaliyyətində bir sıra çatışmazlıqlar yaradır.

Bununla yanaşı, son dövrlərdə A.A.Katayeva, M.S.Pevzner, V.İ.Lubovski, V.Q.Petrova, Y.Q.Berezina, N.D.Sokolova və Y.A.Strebeleva və b. əqli geriliyi və intellektual çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının müxtəlif aspektlərinə həsr olunmuş tədqiqatlar aparmışlar. Bu tədqiqatlar intellektual inkişafın mexanizmlərini ayırd etməyə və bu fonda intellektual çatışmazlığın meyarlarını müəyyənləşdirməyə imkan verir.

Azərbaycanda məktəbəqədər yaş dövrünün və intellektual inkişafın mexanizmlərinin tədqiqinə çoxlu sayda tədqiqatlar həsr edilmişdir. İntellektin öyrənilməsində B.H.Əliyevin, M.Ə.Həmzəyevin, Ə.T.Baxşəliyevin, Ə.S.Bayramovun, Ə.Ə.Əlizadənin, R.İ.Əliyevin, E.B.Bəylərovun, Q.E.Əzimovun və b.tədqiqatlarını xüsusi qeyd etmək olar. Lakin intellektual çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlarda əşyavi oyun fəaliyyəti vasitəsilə onların intellektinin formalaşdırılmasına həsr olunmuş xüsusi tədqiqatlar hələ də sistemli xarakter daşımır və bu da problemin aktuallığını artırır.

**Tədqiqatın obyekti** intellektual inkişafında çatışmazlıqları olan, yüngül dərəcəli oliqofren diaqnozlu, heç bir əlavə qüsuru olmayan məktəbəqədər yaşlı uşaqlardır.

**Tədqiqatın predmeti** intellektual inkişafında çatışmazlıqları olan məktəbəqədər yaşlı uşaqların psixokorreksiyasıdır.

**Tədqiqatın məqsədi** məktəbəqədər yaşlı uşaqların intellektual inkişafına təsir edən neqativ təzahürlərin səbəblərini öyrənmək, xüsusi təşkil olunmuş psixokorreksiyalı şəraitdə bu uşaqların əşyavi oyun fəaliyyətinin psixoloji mahiyyətini müəyyənləşdirməklə uşağın intellektini inkişaf etdirmək, eləcə də psixokorreksiyasının daha effektli, optimal və differensasiyalı metodlarından istifadə edərək uşaqların məktəbə

hazırlığını və sosial adaptasiyasını təmin etməkdir.

**Tədqiqatın fərziyyəsi.** İntellektual çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlarla aparılan psixokorreksiya işinin müvəffəqiyyətli təşkili bir sıra amillərlə yanaşı, uşaqların əşyavi oyun fəaliyyətinə və oyuncaqlara emosional münasibətinin dəyişməsindən, onlarda patoloji süstlüyün azaldılmasından və intellektual fəallıq səviyyəsinin artırılmasından da asılıdır.

Əsas fərziyyə ilə yanaşı bir əlavə fərziyyə də götürülmüşdür:

- İntellektual çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlarla aparılan işin icra tərəfini və fəaliyyət istiqamətlərini dəyişdikdə onlarda davranışla obraz arasında əlaqəni möhkəmləndirməyə və motorikanı gücləndirməklə intellektual inkişafda müsbət dəyişikliyə nail olmaq olar.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulmuş məqsədi həyata keçirmək üçün bir sıra vəzifələr müəyyən edilmişdir.

- Problemlə bağlı klassik psixopedaqoji nəzəriyyələrin müqayisəli (tipik-atipik uşaqlar haqqında) təhlil edilməsi;
- Əşyavi oyun fəaliyyətinin xüsusiliyini müəyyənləşdirmək və atipik uşaqların intellektual inkişafını əşyavi oyun fəaliyyəti vasitəsi ilə aktivləşdirilməsi;
- Atipik uşaqlarda əşyavi oyun fəaliyyətinin psixokorreksiyası üçün differensasiyalı metodikaların, prinsiplərin və yolların axtarıb tapılması;
- Aparılan eksperimentin nəticələri əsasında xüsusi məktəbəqədər müəssisələr üçün inkişafetdirici tövsiyələr hazırlanması.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində intellektual çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlarda əşyavi oyun fəaliyyətinin inkişafı və psixokorreksiyası üçün konkret metodlar verilmiş, praktik məsələlərin həlli zamanı elementar idrak əməliyyatlarının formalaşması üçün zəruri olan oyun formalarından və oyuncaqlardan istifadənin yol və vasitələri müəyyən edilmiş, hərəkət, söz və obraz arasında qarşılıqlı əlaqənin yaradılması üçün mərhələli tapşırıqlar sistemi işlənib hazırlanmış və onun həyata keçirilməsinin metodoloji əsasları göstərilmişdir.

Bununla yanaşı bu işdə:

- Atipik uşaqlarda intellektual inkişafın əsası olan əşyavi oyun fəaliyyətinin spesifik formaya malik olduğu aşkarlanmış;
- Atipik uşaqların tipik uşaqlardan fərqli olaraq didaktik oyuncaqlarla oyun zamanı bələdləşmə üsullarının nizamsız xarakter daşıdığı müəyyən edilmiş;

-Əşyavi fəaliyyətin düzgün təşkili fonunda idrak fəallığının yüksəlməsi

və uşaqlarda bacarıqların formalaşması müşahidə olunmuşdur.

**Müdafiəyə təqdim olunan müddəalar:**

1.İntellektual inkişafında çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlar fərqli psixi inkişafa malik olduqları üçün onlarda elementar əşyavi oyun fəaliyyətində ləngimələr baş verir ki, bu da gələcək təlimi üçün çətinliklər yaradır.

2. Xüsusi təşkil olunmuş psixokorreksiya işinin təsiri nəticəsində atipik uşaqlarda intellektual inkişafı yüksəltmək mümkündür. Atipik uşaqlarda əşyavi oyun fəaliyyəti vasitəsi ilə intellektin formalaşması üçün məktəbəqədər dövrün senzitivliyi daha məqsədəuyğundur.

3. Xüsusi inkişafetdirici psixokorreksiyalı metodikalar intellektual inkişafında çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlarda oyuncaqlara qarşı xoş münasibət yaradır və əşyavi oyun fəaliyyətini mənimsəməklə onların inkişafını normal inkişafa yaxınlaşdırmağa imkan verir.

**Tədqiqatın metodoloji əsasları və metodları.** Tədqiqat zamanı problemin xarakterindən irəli gələn xüsusi psixologiya sahəsində mövcud olan nəzəri müddəalara, oyunun inkişafetdirici funksiyasına, test nəzəriyyələrinə, intellektual inkişaf ilə oyunun vəhdəti ilə bağlı görkəmli psixoloqların ideya və fikirlərinə istinad olunmuşdur. Tədqiqat 2005-2006-cı illərdə Sumqayıt şəhəri inklüziv təhsilli 30, 40, 66, 57 saylı və ümumtəhsil tipli 41,54,52 saylı uşaq bağçasında, Bakı Şəhər Uşaq Ruhi-əsəb Dispanserində və Bakıda yerləşən inklüziv bağçalarda aparılmışdır.

**Tədqiqatın elmi-nəzəri əhəmiyyəti**. Dissertasiyada irəli sürülən elmi-nəzəri fikirlər və müddəalar məktəbəqədər yaşlı uşaqların intellektual inkişafındakı çatışmazlıqları, intellektual fəaliyyətdə nəzərə çarpan süstlüyü müəyyən dərəcədə aradan qaldırılmasında və intellektual inkişafın aktivləşdirilməsində, atipik uşaqlarda ətraf aləmə müsbət xoş münasibət formalaşdırılmasında və elementar əşyavi oyun fəaliyyətinin mənimsənilməsi işində istifadə oluna bilər.

**Tədqiqatın praktik əhəmiyyəti.** Psixokorreksiyalı təlim prosesində formalaşan oyun motivasiyası intellektual çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlarla gələcəkdə intellektual məsələlərin həlli üçün aparılacaq işlərdə istifadə oluna bilər. Tədqiqatın nəticələrindən məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlarla iş aparan psixoloqlar, valideynlər və tərbiyəçilər faydalana bilərlər.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Tədqiqatın nəticələri Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun inklüziv təhsil

şöbəsinin elmi seminarlarında, respublika üzrə keçirilmiş elmi-praktik konfranslarda, xüsusi və ümumtəhsil məktəbəqədər müəssisələrin praktik psixoloqlarının iştirakı ilə keçirilən tədbirlərdə müzakirə olunmuş, tədqiqatın məzmunu, başlıca müddəaları məruzə tezislərində və məqalələrdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsədi və vəzifələri, onun obyekti, predmeti, əsas fərziyyəsi, metodoloji və metodiki əsasları, elmi yeniliyi, elmi-nəzəri və praktik əhəmiyyəti şərh olunur, müdafiəyə çıxarılan əsas müddəalar müəyyən edilir.

Dissertasiyanın I fəsli **"Problemin ümumnəzəri məsələləri"** adlanır. Bu fəsil 3 yarımfəsildən ibarətdir."**Problemin psixoloji mahiyyəti və ədəbiyyatda qoyuluşu**" adlanan birinci yarımfəsildə intellektual çatışmazlığın öyrənilməsi tarixində böyük irs qoymuş L.S.Vıqotski, L.V.Zankov, A.R.Luriya, C.İ.Şif, B.İ.Pinski, Q.M.Dulnev, V.Q.Petrova, İ.M.Solovyev, V.İ.Lubovski, S.Y.Rubinşteyn və s. araşdırmalarına istinad olunur. Bu yarımfəsildə A.Venger, Q.L.Vıqotskaya, E.İ.Leonqard, T.A.Vlasova, M.S.Pevzner, A.A.Katayeva, V.İ.Lubovski, V.Q.Petrova, Y.Q.Berezina, N.D.Sokolova, Y.A.Strebeleva və s. tədqiqatlarında intellektual çatışmazlığın aradan qaldırılması yolları təhlil edilir. Bunların əsası kimi intellektual çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqların erkən aşkarlanması və psixokorreksiya vasitəsi ilə normal cəmiyyətə inteqrasiya olunması, onların ailəsinə müxtəlif formalı psixopedaqoji və sosial köməyin göstərilməsi üçün vahid sistemin yaradılması məsələləri ön plana çəkilir.

Dissertasiyanın I fəslinin "**İntellektual çatışmazlıqların baş verməsində bioloji və psixososial amillərin rolu**" adlanan ikinci yarımfəslində intellektin formalaşmasında psixososial və biogenetik amillərin rolu, onların intellektual çatışmazlığın yaranmasına təsiri aydınlaşdırılır. İntellektin formalaşmasında bioloji və psixososial nəzəriyyələr çərçivəsində həyata keçməsi məsələləri L.S.Vıqotskinin, A.N.Leontyevin, F.A.Samsonovun, S.L.Rubinşteynin araşdırmalarına istinad olunaraq iki amil arasında uyğunluğun nəzəri təhlili aparılır. Bu yarımfəsildə həmçinin intellektual çatışmazlıqların yaranmasına xromosom anomaliyası və psi-

xososial determinantların təsiri və uşağın intellektual inkişafındakı çatışmazlıqların profilaktikasında ailə, ana və böyüklərlə emosional ünsiyyət vacib amil kimi göstərilir, 2005-2008-ci illərdə Bakı uşaq ruhi-əsəb dispanserində aparılmış tədqiqatın nəticəsi təhlil olunur. Burada 300 nəfər məktəbəqədər yaşlı uşaqlarda intellektual çatışmazlığın yaranması səbəbləri ayırd edilmiş və əldə olunmuş məlumatların statistik təhlili aparılmışdır. Aydın olmuşdur ki, tədqiq olunan 300 uşaqdan 70%-ni yüngül dərəcəli oliqofren diaqnozlu 2-6 yaş həddində olan uşaqlar təşkil edir.

Dissertasiyanın I fəslinin **"İntellektual inkişafında çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlarla aparılan müəyyənləşdirici eksperimentin məqsədi və metodikası"** üçüncü yarımfəslində müəyyənləşdirici eksperimentin əsas məqsədi göstərilmiş və məktəbəqədər yaşlı uşaqların oyuncağa olan münasibətini aşkarlamaqla oyuncaqdan istifadə etməyin, oyun fəaliyyətinin inkişaf səviyyəsini və uşağın intellektual fəaliyyətində oyuncağın rolu təhlil olunmuşdur. Bu yarımfəsildə E.Heyssermanın, A.Venqerin, Q.L.Vıqotskinin, E.İ.Leonqardın təklif etdikləri metodikalardan tədqiqatın məqsədinə uyğun şəkildə modifikasiya edilmiş və onun tədbiqinin yolları göstərilmişdir.

Tədqiqatda müvafiq məlumatları əldə etmək üçün sadə metodlardan istifadə edilmişdir. Bakı Şəhər Uşaq Ruhi-əsəb Dispanseri və Bakıdakı 17 saylı, Sumqayıt şəhərindəki inkluüziv təhsilli 30, 40, 66, 57 saylı və ümumtəhsil tipli 41, 54, 52 saylı körpələr evi-uşaq bağçalarında mütəxəssislər valideynlərlə müsahibələr aparmış, defektoloqların korreksiyalı inkişafetdirici iş təcrübəsi öyrənilmişdir. Müəllim, valideyn və həkimlərlə üç istiqamətdə anket sorğusu aparılmış və tədqiqatda iştirak edən uşaqların kateqoriyaları müəyyən edilmişdir.

Tədqiqatda seçim aşağıdakı kimi aparılmışdır: uşaqların sayı 100, tipik uşaqların sayı 64, onlardan 3 yaşlı uşaqlar 30, 4 yaşlı uşaqlar isə 34 nəfər ibarət idi. Atipik uşaqlar isə 36 nəfər, 16 nəfər 3 yaş, 20 nəfər isə 4 yaşlarında idilər. İntellektual inkişafında çatışmazlığı olan və normal inkişaf edən məktəbəqədər yaşlı uşaqların əşyavi oyun fəaliyyətinin tədqiqi göstərdi ki, hər iki kateqoriyaya aid olan uşaqlarda bu proseslərin məntiqi inkişafı ümumi qanunauyğunluqlara tabedir. Hər bir uşağın yaşı artdıqca onların oyuncaqlara olan münasibətinin xarakteri də dəyişirdi. Dəyişkənlik tendensiyası spesifik olmayan manipulyasiyalardan spesifik olan manipulyasiyalara keçir. Bu zaman ilkin olaraq uşaq tərəfindən onların fiziki xüsusiyyətləri nəzərə alınır. Tədqiqatın sonrakı gedişində cəmiyyət tərəfindən qəbul olunmuş əşyanın istifadə üsullarının əşyavi fəaliyyətdə

tətbiqi, eyni zamanda əşyanın məntiqi istifadəsinə əks olan qeyri-adekvat hərəkətlərin miqdarının getdikcə azalması müşahidə olunmuşdu.

Didaktik oyuncaqlarla fəaliyyət göstərərkən, yəni perseptiv və intellektual məsələləri həll edərkən əsas tendensiya nəticəsiz üsullardan (güc ilə hərəkət, xaotik hərəkət) nəticəli üsullara (sınaq, ölçmə, görmə uyğunluğu) keçid ilə səciyyələnirdi. Ümumi tendensiyalar əsasında çoxlu miqdarda keyfiyyət və kəmiyyət müxtəlifliyini hər iki kateqoriyaya aid olan uşaqların intellektual fəaliyyətinin inkişafında müşahidə edilmişdir.

Tipik uşaqların oyuncaqlarla sujetli oyunların öyrənilməsinə yönəlmiş müəyyənləşdirici eksperimentin göstəriciləri

Cədvəl 1.1

| Uşaqların yaşı | Qeyri-spesifik manipulyasiyalar | Qeyri-adekvat hərəkətlər | Oyun bacarığının olmaması | Spesifik manipulyasiyalar | Təsadüfi əşyavi oyun fəaliyyəti | Prosesual hərəkətlər | Hərəkətlərin zəncirvariliyi | Uşaqların ümumi sayı |
|---|---|---|---|---|---|---|---|---|
| 3 yaşlı uşaqlar | 1 | 6 | 4 | 18 | 6 | -- | 1 | 36 |
| 4 yaşlı uşaqlar | 1 | 4 | 5 | 21 | 9 | -- | -- | 40 |

Cədvəl 1.1–də 3-4 yaşlı uşaqların müxtəlif tipli hərəkətlərinin fərqli və oxşar tərəfləri verilmiş, yaş və inkişaf tendensiyası göstərilmişdir.

Böyüklərin təşkil etdiyi oyunlarda (bal üzrə) tipik 3-4 yaşlı uşaq oyunlarının nəticələrini müqayisəsi

Cədvəl 1.2

| Yaş | Əşyaların funksional təyinatının anlanılması | Əşya-oyun fəaliyyəti |
|---|---|---|
| 3 yaşlı uşaqlar | 42 | 30 |
| 4 yaşlı uşaqlar | 45 | 34 |

Müəyyən olundu ki, qeyri-adekvat əşyalarla fəaliyyət zamanı orta məktəbəqədər yaş dövründə olan tipik uşaqlara tanış olmayan oyuncaqlarla müstəqil oyunları zamanı çətinlik çəkirdilər. Əşya uşaqlara tanış olduqda onlar həqiqi əşya fəaliyyəti icra edirdilər.

Tapşırığın yerinə yetirilməsi üzrə uşaqların təyini

Cədvəl 1.3

| | Tapşırıqların yerinə yetirilməsi | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 0 | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8-9 | 10-12 |
| Uşaqların sayı | 2 | 3 | 3 | 5 | 4 | 2 | -- | 1 | -- | -- |

Cədvəl 1.3-dən göründüyü kimi, heç bir uşaq verilən tapşırıqları tam yerinə yetirə bilmədi. Alınan nəticələri təhlil edərkən belə qərara gəlmək olar ki, artıq uşaqlar cüt şəkillərin seçimində nümunəyə istinad edə bilirlər. 160 növdə təqdim olunan tapşırığın ancaq 95-ində oyuncağın funksiyasına uyğun olmayan hərəkətlər müşahidə olundu. Məqsədə çatmaq üçün uşaqlar oyunun şərtlərini təhlil etmirdilər.

Tapşırığın yerinə yetirilməsi üzrə uşaqların göstəriciləri

Cədvəl 1.4

| | Tapşırıqların yerinə yetirilməsi | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 0 | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8-9 | 10-12 |
| Uşaqların sayı | 1 | -- | -- | 2 | 7 | 3 | 1 | 1 | 5 | -- |

Cədvəl 1.4-dən göründüyü kimi, uşaqlar verilən tapşırıqları tam yerinə yetirə bilmədilər. Beləliklə, dörd yaşlı uşaqlar intellektual və perseptiv tapşırıqları nümunəyə istinad etməklə məqsədyönlü sınaqlar həyata keçirməyə başlandı. Əgər tipik uşaqlar öz hərəkətlərini böyüklər tərəfindən qiymətləndirilməsini istəyirdilərsə, atipik uşaqlar üçün böyüklərin onların hərəkətlərinə qiymət verməsi onlar üçün əhəmiyyətsiz idi. 3 yaşlı uşaqların hərəkətlərində spesifik olmayan hərəkətlər müşahidə olunurdusa, artıq həyatın 4 ilində faktiki olaraq bu hərəkətlər yox səviyyəsində idi. Atipik uşaqlarda isə tədqiqat dövrünün sonuna kimi adekvat olmayan hərəkətlər fəaliyyətin əsasını təşkil edirdi. Buna baxmayaraq artıq tanış əşyalarla primitiv spesifik manipulyasiyalar müşahidə olunurdu. Atipik uşaqlarda faktiki olaraq əşyavi oyun hərəkətləri hələ də müşahidə olunmurdu. Tipik 4 yaşlı uşaqların fəaliyyətində əşyavi oyun hərəkətləri mühüm yer tutur, "Bu nədir? və "Bununla nə etmək olar?" istiqamətləndirici sualları müşahidə etmək olar. Atipik uşaqlardan isə praktiki olaraq "Bu nədir?" sualları az eşidilir. İstiqamətləndirici tədqiqat hərəkətləri hər iki kateqoriyada olan uşaqlarda fərqli olmuşdur.

Atipik uşaqların didaktik oyuncaqlarla oyunu zamanı oriyentasiya üsulları nizamsız xarakter daşıyırdı. Tipik uşaqlarda isə oyuncaqlarla oyun zamanı adekvat olmayan hərəkətlər azlıq təşkil edirdi. Tipik uşaq-

larda nizamsız hərəkətlərdən sonra axtarış üsullarını, yəni əvvəlcə praktik sınaqlar sonra isə tətbiq etmə hərəkətləri müşahidə olunmuşdur. Bu üsullar uşağa müstəqil olaraq məqsədyönlü surətdə düzgün yol seçməyə imkan yaradır. Atipik uşaqlarda fəaliyyət zamanı tətbiqetmə yaranmır. Onlar böyüklərlə əməkdaşlıq edərək onlardan həvəslə yeni tapşırığı alırlar, amma tapşırığın mahiyyətinə vara bilmirlər. Tədqiqat göstərdi ki, atipik uşaqlar tapşırığın 7,5%-ni, tipik uşaqlar isə33,5% -ni yerinə yetirmişlər.

Dissertasiyanın II fəsli **"Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafına əşyavi oyun fəaliyyətinin təsiri"** adlanır. II fəslin **"Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafında əşyavi oyun fəaliyyətinin rolu"** adlanan birinci yarımfəslində məktəbəqədər yaşlı uşağın intellektual inkişafında oyun fəaliyyətinin rolu təhlil edilir. Qeyd olunur ki, təlim ikitərəfli proses olduğu üçün bu prosesdə hər iki tərəfin rolu nəzərə alınmalıdır. Bu yarımfəsildə göstərilir ki, böyüklər tərəfindən məktəbəqədər yaşlı uşağın intellektual inkişafında oyun fəaliyyətinin məqsədi elə qoyulmalıdır ki, uşaq arzusuna çatmaq üçün müəyyən oyun vəsaitlərindən, onların xüsusiyyət və münasibətlərindən düzgün istifadə edə bilsin.

Dissetasiyanın II fəslinin **"Məktəbəqədər yaşlı intellektual inkişafında çatışmazlığı olan uşaqların əşyavi oyun fəaliyyətində psixokorreksiyanın zəruriliyi"**adlanan ikinci yarımfəslində intellektual çatışmazlıq zamanı xarakterik xüsusiyyətlərdən biri olan fəaliyyətdə olmayan aktivlik təhlil olunmuş, oyun fəaliyyətində psixokorreksiyanın zəruriliyi göstərilmişdir. Burada göstərilir ki, məktəbəqədər yaşlı uşaqlarda intellektual inkişafda olan çatışmazlıqların əsas əlaməti sayılan fəaliyyətdə olmayan aktivliyı erkən körpəlik dövründə aşkarlamaq üçün inklüziv və ümumtəhsil tipli uşaq bağçalarında aparılan müşahidələrin nəticələri göstərilmişdir. Tədqiatın nəticələri göstərdi ki, birinci ayın sonunda körpə heç vaxt yeməkdən əvvəl ağlamır, aclıq reaksiyasını göstərmirlər. Dördüncü ayın sonunda onunla danışmağa cəhd göstərdikdə o gülmür, qığıldamır. Beşinci ayın sonunda ananın qucağında ikən ananın çağırdığı adamlara və götürdüyü əşyalara nəzər salmır, musiqini dinləmir. Yeddinci ayın sonunda yaxın insanların səslərini tanımır, intonasiyaya düzgün reaksiya vermək bacarığına malik deyil, melodiyalı oyuncağı üstün tutmur. Doqquzuncu ayın sonunda onda "vağ-vığ" olmur, o böyüklərin arxasınca müxtəlif səs ifadələrini və hecaları təkrar edə bilmir, danışan insanın intonasiyasını təqlid edə bilmir. Onuncu ayın sonunda körpə etiraz bildirmək məqsədilə başını yırğalamır, əlləri ilə "gəl-gəl" etmir. Bir yaşın sonunda körpə heç bir söz ifadə edə bilmir,

elementar xahişləri ("göstər", "gətir") yerinə yetirə bilmir, düzgün olmayan davranışa görə deyilən iradlara və ya təriflərə adekvat reaksiya verə bilmir. Bir yaş dörd ayında körpə adekvat situasiyaya görə "ana" və "ata" sözlərindən istifadə edə bilmir.Bir yaş doqquz ayında köpə 6 mənalı söz ifadə edə bilmir. İki yaşında ikən körpə böyüklərin göstərişi ilə bədən hissələrini göstərə bilmir, "Get mətbəxə və mənə fincanı gətir" kimi mürəkkəb xahişləri yerinə yetirə bilmir, yaxınların fotolarını tanıya bilmir.İki yaş yarımında "böyük" və "balaca" sözləri arasında fərqi anlamır. Üç yaşında balaca şeirləri, nağılları anlamır. Onları yenidən danışmağa cəhd etmir, xəttin ən uzununu göstərə bilmir. Onun adını və soyadını soruşduqda cavab verə bilmir. Dörd yaşında rənglərin adlarını sadalaya bilmir, 5-ə qədər saymağı bacarmır, uzun nağıllar dinləməyi bacarmır, heç bir şeir deyə bilmir.

Dissetasiyanın II fəslinin **"Məktəbəqədər yaşlı intellektual inkişafında çatışmazlığı olan uşaqların əşyavi oyun fəaliyyətinin psixoloji problemləri"** adlı üçüncü yarımfəslində tipik və atipik 3-4 yaşlı uşaqların intellektual aktivliyinin psixoloji məsələləri xarakterizə olunmuş, hər iki kateqoriyaya aid uşaqların psixi inkişaf qanunauyğunluqlarının eynilik təşkil etməsi aydınlaşdırılaraq erkən və məktəbəqədər yaşlı uşaqların intellektual fəaliyyətinin öyrənilməsinin göstəriciləri qiymətləndirilmişdir. Müəyyən edilmişdir ki, böyüklərlə xoş münasibətin xarakteri, oyuncaqlara qarşı xoş münasibət, hər bir oyuncaqla oyunun müddəti, əşya fəaliyyətinin mənimsəmə səviyyəsi, əşyanın funksional təyininin anlanılması, fəaliyyətə praktik yiyələnmə və böyüklər tərəfindən qiymətləndirməsi, özünüqiymətləndirmə, oyun motivasiyası, intellektual maraqların elementləri və s. məktəbəqədər yaşlı intellektual inkişafında çatışmazlığı müyyən dərəcədə korreksiya edir.

Dissertasiyanın **"İntellektual inkişafında çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlarla aparılan eksperimentlər və onların təhlili"** adlanan III fəsli dörd yarımfəsildən ibarətdir. **"Məktəbəqədər yaşlı uşaqlarda əşyavi oyun fəaliyyəti vasitəsi ilə intellektual fəallığın yüksəldilməsi (tipik və atipik uşaqlar)"** adlanan birinci yarımfəslində orta məktəbəqədər yaş dövründə olan tipik inkişaf edən uşaqların azad oyunu və böyüklərin yaratdıqları oyunlar şərh edilir.

Dissertasiyanın III fəslinin **"Formalaşdırıcı eksperimentin məqsəd və metodikası"**adlanan ikinci yarımfəslində formalaşdırıcı işin cəhətləri təhlil olunur. Formalaşdırıcı eksperimenti keçirmək üçün 8 qrup təşkil olunmuşdur. 4 eksperimental və 4 yoxlayıcı qrupun ikisini üç yaşlı,

ikisini isə dörd yaşlı normal inkişaf edən uşaqlar; 2 qrupu üç yaşlı, 2 qrupu isə dörd yaşlı intellektual inkişafında çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlar təşkil edirdilər. Məşğələlər fərdi və ya yarımqrup şəklində 2-3 uşaqla keçirilirdi. İntellektual inkişaf üzrə iş həm eksperimental, həm də kontrol qruplarda eyni proqram materialı, lakin müxtəlif metodikalar üzrə aparılırdı. Eksperimental qruplarda keçirilən metodikanın əsas məqsədi uşaqlarda oyuncaqlara qarşı müsbət xoş münasibəti formalaşdırmaq, oyuncaqlar vasitəsi ilə düzgün və müxtəlif əşyavi oyun hərəkətlərini ardıcıllıqla yerinə yetirilməsini öyrətməkdən və bununla intellektinin inkişafa nail olmaqdan ibarət idi. Yoxlayıcı eksperiment zamanı intellektual çatışmazlığı olan uşaqlar üçün 5 hissəli kəsik şəkillərin düzəldilməsi çətin olduğu üçün onlara 3 hissəli kəsik şəkillərin düzəldilməsini təklif olunmuşdur. Uşaqlar verilmiş tapşırığın 43 %-ni yerinə yetirə bilmişlər. Yoxlayıcı qrupun uşaqları təklif olunan tapşırığın 6 %-ni yerinə yetirdilər. 6 uşaq böyük çətinliklə matryoşkanı düzəltdi. Digər uşaqlar heç bir tapşırığı yerinə yetirə bilmədi. Uşaqlar yeni oyuncaqlarla görüşərkən onların hərəkəti düşüncəsiz xarakter daşıyırdı. Öncə onlar tapşırığı anlamır və özlərini itirirdilər. Belə ki, uşaqlar öz səhvlərini anlamır, çəitinliyi aradan qaldırmağa cəhd göstərmir və müsbət nəticəyə nail olmaq istəmirdilər. Bununla yanaşı, onlarda oyun zamanı müsbət emosional əhval-ruhiyyə müşahidə olunurdu.

Dissertasiyanın III fəslinin **“Yoxlayıcı eksperimentin metodikası”**adlanan üçüncü yarımfəslində yoxlayıcı eksperimentin nəticələri təhlil olunur. Burada göstərilir ki, aparılan eksperimental qrupda olan uşaqlarla aparılacaq məşğələlər iki hıssədən ibarət olmuşdur: I hissəyə oyuncaqlarla süjetli oyun, II hissəyə isə intellektin inkişafı, yəni süjetli və didaktik oyuncaqların köməyi ilə qavrayışın, təffəkürün inkişaf etdirilməsi məsələsi daxil edilmişdi.

Formalaşdırıcı eksperimentin nəticəsi irəli sürülən fərziyyəni təsdiq edərək tipik və atipik uşaqda əşya-oyun fəaliyyətinin potensial imkanlarını aşkar etdi və əşya-oyun fəaliyyətinin intellektual fəaliyyətin aktivləşməsində böyük yer tutduğunu göstərdi.

Təlimdən öncə hər iki kateqoriyaya aid uşaqların oyuncaqlarla oyunlarında (tipik uşaqlarda 48%, atipik uşaqlarda 89%) xaos, güc tədbiq etmə kimi hərəkətlər mühüm yer tuturdu. Uşaqlar oynayarkən obyektlərin xüsusiyyət və münasibətlərini nəzərə almırdılar. Təlimdən sonra perseptiv istiqamətlənmə 3 yaşlı tipik uşaqlarda 4%, 4 yaşlılarda isə 24% təşkil etmişdi. Nəzərə almaq lazımdır ki, sistem daxilində hər

hansı bir elementin çatışmaması təlim prosesinin qeyri-təşkilatçılığına gətirib çıxarır. Təlimlənmənin nəticələri yoxlayıcı eksperimentdə təsdiq olunmuşdur. Psixokorreksiya işini oyuncaqlara xoş münasibət yaratmaq və onlarla oynamaq, oyuncaqlarla adekvat üsulları formalaşdırmaq istiqamətində qurulması idraki fəallığı artırır.

Dissertasiyanın III fəslinin **"İntellektual çatışmamazlığı olan məktəbəqədər yaşlı uşaqlarla əşyavi oyun fəaliyyəti zamanı aparılan psixokorreksiya işi"**adlanan dördüncü yarımfəslində intellektual inkişafında çatışmazlıqları olan məktəbəqədər yaşlı uşaqların oyun fəaliyyətinin formalaşması üzrə aparılan sistemli psixokorreksion iş təhlil olunur. Burada göstərilir ki, səmərəli psixokorreksiya əsasında uşaqların əşya-oyun fəaliyyəti strukturunda və eyni zamanda, uşağın intellektual inkişafında kardinal dəyişikliyə nail olmaq mümkündür. Psixokorreksiyanın təsiri altında intellektual inkişafında çatışmazlıqları olan uşaqların fəaliyyətində aşkar olunan spesifik xüsusiyyətlər bilavasitə aradan qaldırılaraq əşya-oyun fəaliyyətinin strukturunda keyfiyyət dəyişikliyinə gətirib çıxartdı və digər fəaliyyət növlərinin formalaşmasına təsir göstərdi. Yəni, uşaqların elementar əmək fəaliyyətinə, onlarda müəyyən tapşırığı yerinə yetirmək bacarığının inkişafına sanki həvəsi artırdı. Uşaqlar böyük bir həvəslə onlara tapşırılan işi yerinə yetirməyə can atır, böyüklərin işini həvəslə, maraqla izləyirdilər.

İntellektual inkişafında çatışmazlıqları olan məktəbəqədər yaşlı uşaqların psixoloji xüsusiyyətlərini öyrənərkən, onların əşyavi oyun fəaliyyətinin inkişafı ilə əlaqədar intellektual inkişafının yüksəlməsi ilə yanaşı, tədqiqat aparılan müddətdə onların şəxsiyyətinin də müsbət yönümdə inkişafına nail olunmuşdur.

Apardığımız tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə əsas verdi:

1.Erkən və məktəbəqədər yaş dövrlərində intellektual inkişafın psixokorreksiya üsulları aparıcı fəaliyyət ilə əlaqəlidir. Erkən dövrdə manipulyasiya və əşya fəaliyyəti üstünlük təşkil edirsə, məktəbəqədər yaş dövründə əşya fəaliyyəti ilə sıx əlaqəli olan oyunun ilkin inkişaf mərhələləri formalaşır.

2. Bu yaş dövrlərində oyun və intellektual fəaliyyətin qarşılıqlı asılılığı və inkişafı haqqında ədəbiyyatın təhlili göstərdi ki, bu mərhələlərdə intellektual aktivliyi qiymətləndirməyə ciddi zərurət var.

3. Tədqiqat göstərdi ki, tipik uşaqlar və atipik uşaqların intellektual inkişafının göstəricisi olan oyuncaqlarla oyunun inkişafı ümumi tendensiyalarla əlaqəlidir. Lakin kəmiyyət və keyfiyyət fərqləri qaçılmazdır.

İntellektual çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlarda inkişaf tendensiyasının həyata keçirilməsi ancaq xüsusi psixokorreksion iş şəraitində mümkün ola bilər.

4. Psixokorreksion işin təşkili prinsipi, əsasən, təqdim olunan təlim sisteminin hər bir struktur komponenti xüsusi olaraq dəqiq şəkildə işlənməli və komponentlərin qarşılıqlı əlaqələrini təmin etməlidir.

5. Psixokorreksion işin əsas struktur komponentləri; oyuncağa və onunla fəaliyyətə emosional münasibət yaratmaq; oyun motivasiyasını formalaşdırmaq; oyuncaqlarla oyun üsullarını, müxtəlif oyun situasiyalarını daxil edərək öyrətmək; oriyentasiya fəaliyyətini formalaşdırmaq, oriyentasiyanın axtarış üsullarını öyrətmək; öz fəaliyyətinə qiymətləndirici münasibəti yaratmaq və nəzarət metodlarına yiyələndirməkdir.

6. Müasir metodlardan və uşağın yaş xüsusiyyətlərini nəzərə alan psixokorreksiya işi məktəbəqədər intellektual çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlarda patoloji süstlüyü bilavasitə aradan qaldırmağa imkan yaradır və onların intellektual fəaliyyətini aktivləşdirir. Eyni zamanda, əşya aləmində bələdləşmə üsulunu və əşyavi oyun fəaliyyətinin xarakterini dəyişir, oyunun motivasiya elementlərini yaradır.

7. Tədqiqat göstərdi ki, tipik inkişaf edən və debil səviyyəli oliqofreniya ilə əziyyət çəkən uşaqlarda intellektual inkişafının göstəricisi olan oyuncaqlarla oyunun inkişafı ümumi tendensiyalarla əlaqəlidir. Lakin kəmiyyət və keyfiyyət fərqləri qaçılmazdır. İntellektual çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlarda inkişaf tendensiyasının həyata keçirilməsi ancaq xüsusi psixokorreksion iş şəraitində mümkün ola bilər.

8. Əşyavi oyun fəaliyyəti zamanı yerinə yetirilən hər bir hərəkət psixokorreksiyanın məqsədini həyata keçirməklə sadəcə uşağı fəaliyyətə cəlb etmək deyil, həmçinin uşağın potensialının aşkar edliməsinə imkan yaradır.

9. Əldə olunan nəticələr göstərir ki, tipik inkişaf edən uşaqlara nisbətən intellektual çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlar üçün tətbiq olunan formalaşdırıcı psixokorreksion üsullar onların intellektinin inkişafı üçün daha məqsədəmüvafiq sayıla bilər.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı proqram, məqalə və tezislərində öz əksini tapmışdır:**

1. Psixo-fiziki inkişafında problem olan uşaqlarda geriliyin erkən dövrlərində aşkarlanması və korreksiya haqqında // İbtidai məktəb və məktəbəqədər tərbiyə, Bakı, 2006, № 2, s.60-63;

2. Xüsusi psixologiyanın aktual problemləri //Psixologiya jurnalı,

Bakı, 2006, № 2, s.138-146;

3. «Norma və anomaliya» problemləri zamanı psixi inkişaf qanunauyğunluqları //AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun Elmi əsərləri, Bakı, 2007, №2-3 (9), s. 97-108;

4. İntellektual inkişafında problem olan məktəbəqədər yaşlı uşaqların psixodiaqnostikası //Psixologiya jurnalı, Bakı, 2007,№ 2, s.176-183;

5. Əqli geriliyi olan məktəbəqədər yaşlı uşaqlarda zaman və məkan təsəvvürlərinin inkişaf etdirilməsi / "Pedaqoji elmlər təhsilin xidmətində" mövzusunda respublika elmi-praktik konfransın materialları. Bakı: 2009, s. 270-276;

6. İntellektual çatışmazlığı olan məktəbəqədər yaşlı uşaqlarda oyun fəaliyyətinin psixokorreksion rolu // Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, Bakı, 2010, №3 s.385-390;

7. **İntellektual çatışmazlığın öyrənilməsinin qısa tarixi /T**əhsil **Problem**ləri **İnstitutunun Elmi əsərləri**, Bakı, 2010, №4, s.137-139

8. İntellektual inkişafında çatışmazlıqları olan məktəbəqədər yaşlı uşaqların psixokorreksiyası üzrə aparılan tədqiqatın nəticələri // Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, Bakı 2011, №1 s.75-82

9. İntellektin inkişafı zamanı erkən və məktəbəqədər yaş dövrünün psixoloji qanunauyğunluqları // Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, Bakı-2011, №1, s.196-198

10.Yeni kurikulumların həyata keçirilməsi zamanı psixoloji hazırlığının mahiyyəti // Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, Bakı, 2011, №3 s.111-114

11.Биогенетические и психосоциальные основы происхождения интеллектуальной недостаточности у детей // Поиск, Казахстан, 2011, № 4, с. 337-343.

12. Psixoloji sağlamlığında problemi olan «risk qrupuna» aid uşaqlara pedaqoji münasibət / "Azərbaycan təhsili yeni inkişaf mərhələsində" mövzusunda respublika elmi-praktik konfransın materialları. Bakı: 2010, s. 358-362

13. Əqli geriliyi olan məktəbəqədər yaşlı uşaqlarda intellektual inkişafının göstəricisi olan əşya-oyun fəaliyyətinin öyrənilməsi və psixokorreksion işin mahiyyəti / Doktorantların və gənc tədqiqatçıların XV respublika elmi-praktik konfransının materialları. Bakı: 2011, s. 349-351

14. İntellektual potensialın formalaşmasında dövlət təhsil proqramların rolu / Müəllim hazırlığının müasir problemlərinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. Bakı: 2011, s. 314-317

**М.А.Маммедова**

## Психокоррекция детей дошкольного возраста с интеллектуальной недостаточностью

### Р Е З Ю М Е

С приобретением независимости Азербайджанской Республики, изменения произошедшие в жизни общества оказали свое положительное влияние на систему образования. Для создания инклюзивного образования на современном уровне, важно изучать механизмы психокоррекции детей с недостаточным интеллектуальным развитием в дошкольном возрасте и необходимо обеспечить их успешное интегрирование в нормальное общество. Таким образом, главной целью было избрание как объекта исследования проблема психокоррекции детей дошкольного возраста с недостаточным интеллектуальным развитием.

Диссертация состоит из введения, трех глав, выводов, использованной литературы и приложения. Во введении обосновывается актуальность исследования, определяются его цель, объект, задачи, раскрываются теоретико-методологические основы и методы исследования, характеризуется научная новизна, теоретическая и практическая значимость работы, приводятся сведения об экспериментальной базе исследования, апробации и внедрении результатов в практику, излагаются положения, выносимые на защиту.

В первой главе диссертации называемой «Общетеоретические вопросы проблемы» ссылаются на исследования ученых, оставивших большой след в истории изучения интеллектуальной недостаточности. Эта глава также посвящена вопросам биогенетических и психосоциальных основ происхождения интеллектуальной недостаточности у детей. Ее основу составляют проблемы, играющие доминирующую роль в интеллектуальной недостаточности ребенка и на первый план выдвигается создание единой системы оказания психопедагогической и социальной помощи семьям в которых есть дети дошкольного возраста с интеллектуальной недостаточностью.

Вторая глава, под названием «Воздействие предметно-игровой деятельности на интеллектуальное развитие детей дошкольного возраста», посвящена принципу активного участия ребенка с интеллектуальной недостаточностью в процессе, в котором во время двустороннего обучения – со стороны взрослых дать ему привычки и знания, и основываясь на свое интеллектуальное развитие, желание ребенка усвоить их.

В главе «Эксперименты, проводимые с детьми дошкольного возраста с недостаточным интеллектуальным развитием и их анализ» был проведен анализ структур деятельности у атипичных детей. Их предметно-игровая элементарная трудовая деятельность, речь и развитие личности непосредственно подверглись воздействию психокоррекции.

Результаты исследования обобщены и резюмированы в заключении. Они могут быть использованы в работе с детьми дошкольного и младшего школьного возраста коррекционными психологами, родителями, а также в университетских лекциях по коррекционной психологии и педагогике.

**M.A.Mammadova**

# Psychological correction of preschool children with intellectual disabilities

## RESUME

Changes that occurred in the community, have had a positive impact on the education system since the Azerbaijan Republic became independent. It is important to study the mechanisms of psychological correction of children with poor intellectual development in the preschool years, and it's necessary to ensure their successful integration into normal society for creation of inclusive education at the present-day level. Thus, the main goal was to select psycho correction problem of pre-school children with poor intellectual development as a research object.

The dissertation consists of an introduction, three chapters, conclusions, references and applications. The relevance of the study, its purpose, object, tasks, the theoretical and methodological foundations and research methods, scientific innovation, theoretical and practical significance of the work, information on the basis of experimental research, testing and implementation of the results into practice, set of provisions for the defense are reflected in the introduction.

Studies of scientists, who left a large footprint in the history of the study of mental disorders, are being referred in the dissertation's first chapter, called "General theoretical issues of the problem". This chapter is also devoted to the matters of biogenetic and psychosocial basis of the origins of children's mental disorders. The problems, playing a dominant role in the child's mental deficiency, make up its foundation. Development of the unified system of psycho-pedagogical and social assistance to families, who have children under school age with intellectual deficiency, comes to the fore.

The second chapter is entitled "The Impact of subject-game activity on the intellectual development of pre-school children". This chapter refers to the principle of active participation of children with intellectual disabilities in the learning process. During this bilateral process adults give the child knowledge and habits, and the child, in his turn, desire to grasp them, basing on his intellectual development.

Analysis of the structures of atypical children has been held in the chapter "Experiments conducted with preschool children with non-sufficient intellectual development and analysis." Their subject-game elementary work activity, speech and personal development were directly exposed to psychological correction.

Results of the study are summarized and recapitulated in the conclusion. They can be used in the work with pre-school and primary school children by the correctional psychologists, parents and as well as at university lectures on correctional psychology and pedagogy.